# Elvin İsmayılovun şərəfli ömür yolu...

**Şəhidlər torpağı vətənə, vətəni isə qibləgaha çevirən müqəddəslərdi. Şəhidlər torpaq üçün can verib, torpağın köksündə uyuyanlardı. Torpağın üzərində dikilən hər şəhid məzarı azadlığın sütünudur. Hər biri azadlığın dəyərini donmuş baxışları ilə izah edir.**




Vətənin müqəddəs şəhidlərinin sırasında Elvin İsmayılovun da adı yer alıb. İsmayılov Elvin Tələt oğlu 1989-cu il martın 9-da Beyləqan rayonunun İkinci Əlinəzərli kəndində anadan olmuşdu. 1995-ci ildə Əlinəzərli kənd K.Əliyev adına 2 N - li tam orta məktəbdə 1-ci sinifdə təhsil almağa başlamışdı. 2006-ci ildə məktəbi bitirdikdən sonra elə həmin ildə Beyləqan hərbi komissarlığından Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdı. Tərtər rayonu N saylı hərbi hissədə xidmət etmişdi. Xidmətini bitirdikdən sonra Elvin müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmətini davam etdirmişdi. 2011-ci ildə Qazax rayonunun N saylı hərbi hissəsində xidmətə başlamışdı. 2019-cu il aprel ayında Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmət etmişdi. Hər zaman işini məsuliyyətlə icra edən Elvin dəfələrdə medal və diplomlarla təltif edilmişdi. O,"Qurban Bayramı münasibəti ilə döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərinə görə" N saylı hərbi hissənin komandiri tərəfindən 2015-ci il 23 sentyabrda Fəxri fərmanla təltif olunmuşdu. Kiçik çavuş "31 Dekabr Dünya Azərbaycanlıların həmrəyliyi günü və Yeni il bayramı münasibəti ilə nümunəvi hərbi xidmətinə, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə" 2016-cı il 31 dekabrda N saylı hərbi hissənin komandiri tərəfindən Fəxri fərmanla təltif olunmuşdu. Kiçik çavuş İsmayılov Elvin Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən 2018-ci il 26 iyunda "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubiley medalı ilə təltif olunmuşdu. Çavuş İsmayılov Elvin Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən 2020-ci il 26 iyunda "Qüsursuz xidmətə görə " III dərəcəli medal ilə təltif olunmuşdu.

2020-ci il 26 iyunda çavuş İsmayılov Elvin N saylı hərbi hissənin komandiri tərəfindən "26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri günü münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda, nizam-intizamda fərqləndiyinə görə" Fəxri fərmanla təltif olunmuşdu. Elvin orduda müstəsna xidmətləri olan bir qəhrəman idi. Hər bir Azərbaycan əsgəri kimi Elvin də Qarabağı azad görmək arzusu ilə yaşayırdı. Hər bir əsgərin və hər bir azərbaycanlının gözlədiyi o məqam yetişdi.

2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu Erməni silahlılarının növbəti təxribatı ilə Qarabağa doğru yola ilk addımı atdı. İllərdi işğal altında olan torpaqlar qarış-qarış azadlığa qovuşdu. Qəhrəman oğullar min bir hünərlə zəfərə doğru addımladılar.

Elvin də çox arzularını vətən sevgisinə qurban edən qəhrəman oğullarımızdan biri idi. O, 2019-cu il 29 dekabrda Şəhla xanımla ailə həyatı qurmuşdu. Şəhla xanım sevdiyi ilə cəmi 9 ay xoşbəxt ömür sürdü. Elvin son dəfə 27 sentyabrda Şəhla xanımla vidalaşıb döyüşə yola düşdüyündə halallıq istəyir. Bu vida Şəhla xanımın ürəyinə od salır. Sevdiyinin ardınca su atıb, geri dönüşü üçün qurban deyir. Elə həmin gündən Elvinlə əlaqə saxlamaq mümkün olmur. Günlər sonra Elvinin yaralı olduğu və evə gətirəcəkləri xəbərini duyan Şəhla xanım fəryad edir. "Yaralı birini heç evə gətirərlərmi" deyir. Həmin an Elvinin şəhid olduğunu düşünən xanımı düşüncəsində yanılmır. Elvinin gedişi ilə sevdiyinin ümid işığı sönür. Bir əmanət övladı belə qalmayan Elvindən bir məzar, bir də şəkillər qalır.

Elvin İsmayılov Cəbrayılın Rüzgar kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid olmamışdan öncə yaralı yoldaşlarını xilas edən, özü yaralı olan Elvinə dostları nə qədər "sən yaralısan qayıt geri" desələr də Elvin "son damla qanıma qədər döyüşəcəm" deyib və elə son damla qanına qədər də döyüşüb. 27 sentyabrda şəhid olan Elvin oktyabrın 3-də Beyləqan rayonunda Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə İsmayılov Elvin Tələt oğlu şəhadətindən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Heç bir hərbçi döyüşün başladığı zaman şəhid olmaq istəməz. İllərlə Elvin Qarabağa bayraq sancmaq arzusu ilə yaşadı. Ancaq onun Vətən müharibəsində döyüş yolu ömrü kimi qısa oldu. Döyüş yoldaşları Elvinin, bütün şəhidlərin intiqamını aldılar və Qarabağın hər yerinə şanlı vətən bayrağımızı sancdılar.

**ŞƏHİD ELVİN**

*Həsrətin cahana yağan yağış tək,*
*Hər kəsin üzünə çilənib şəhid.*
*Adını duyanda titrəyir ürək,*
*Bağlı qapıları açansan şəhid.*

*İllərlə pas tutan ümid qapısın,*
*Gücünlə, sevginlə taybatay açdın.*
*Günəş şəfəqi də heç isitmirdi,*
*Donan torpaqlara sən şəfəq saçdın.*

*Sinəsi çat tutub lap cadar olan,*
*Torpaq qurtum - qurtum içdi qanını.*
*Kök atdı bir anda azadlıq eşqi,*
*Aldı ağuşuna Azərbaycanı.*

*Vətənə azadlıq müjdəsi verən,*
*Qəhrəman biri tək düşdün dillərə.*
*Elvin, illər sonra sən qədəm qoydun,*
*Düşmən tapdağında olan yerlərə.*

***Manya SƏXAVƏTQIZI***